***Leyli Əliyeva***

## ***Müşəxəss***

**H**eyrətdə qalan bil bütün aləm bura gəlmiş,
**E**l oğlu, Sənə eşqini yazan nə gözəlmiş.

**Y**ağış kimi gözlərdən axan yaşlara bir bax,
**D**ərd adlı fəraqı duyan insan nə gözəlmiş.

**Ə**llərdəki güllər də Sənə eşqini söylər,
**R**əhmət oxuyan külli-müsəlman nə gözəlmiş.

**Ə**ynində bəyaz paltarı da şahlara məxsus,
**L**əldən də gözəl sözləri qalan nə gözəlmiş.

**İ**nsan gedəri xəlq edənin yanına bir gün,
**Y**erdən göyədək yüksələn azan nə gözəlmiş.

**E**l axtaracaq itkisini, Leyli də söylər,
**V**allahi bizim Azərbaycan nə gözəlmiş.

2003

***Əliyeva L. (Leyli). Müşəxəss // Mərd atasan. - Bakı: Nurlan, 2007. – S. 22.***